# Müstəqilliyimizin, azadlığımızın təntənəsi

**Qanlı 20 Yanvar faciəsi xalqımızın yenilməz əzmkarlığını, mütəşəkkilliyini, mətanətini, vətənpərvərliyini göstərən və yaşadan zəfər salnaməsidir. 20 Yanvar Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür.**

Bu gün Qanlı Yanvar faciəsindən xalqımızı 32 illik zaman fasiləsi ayırır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovetlər İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir. 20 Yanvar hadisələri ərəfəsində Sovet İttifaqı Kommunist Partiyası rəhbərliyinin xalqın mənafeyinə zidd siyasəti, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı Mərkəzin, şəxsən Mixail Qorbaçovun apardığı qeyri-obyektiv və qərəzli xətt geniş xalq kütlələrinin qəzəbinə səbəb olmuşdur. Xalq arasında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərliyinin fəaliyyəti də kəskin etirazlar doğurmuşdur. Məhz həmin dövrdə bir neçə ay Bakıda və respublikamızın digər şəhər və rayonlarında keçirilmiş izdihamlı mitinqlərdə Azərbaycan rəhbərliyinin istefası tələb olunurdu. Cəmiyyətdə yaranmış qarşıdurmanın siyasi yollarla tənzimlənməsi üçün Azərbaycan SSR-in rəhbərliyi mövcud imkanlardan istifadə etməmiş, bir çox taleyüklü məsələnin həllində aciz qalmış və nəticədə respublikada kəskin hakimiyyət böhranı yaranmışdır.

Respublikada fövqəladə vəziyyətin tətbiqinədək 82 hərbi qulluqçu amansızcasına qətlə yetirilmiş, 20 nəfər ölümcül yaralanmış, fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada, 26-da isə Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Rus hərbi qulluqçuları tərəfindən 200 ev və mənzil, 80 avtomobil, o cümlədən təcili yardım maşınları yandırılmış, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində dövlət əmlakı və insanların şəxsi əmlakı məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin, təcili yardım işçiləri və milis nəfərləri olmuşdur.

Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar günündə xalqımız öz istiqlaliyyəti uğrunda əzmkarlıq göstərmiş, xeyli sayda qurbanlar vermişdir. Sovet imperiyası qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğınların yaraları hələ də sağalmamışdır. Xalqımız hələ də o müdhiş 20 Yanvar gecəsini xatırlayır, bu xəyanətin və vəhşiliyin səbəbkarlarını lənətləyir, azadlıq qurbanlarının əziz xatirəsini böyük ehtiramla yad edirlər.

Təəssüf ki, xalqımızın başına gətirilən bu müdhiş faciə barədə o zaman dünya birliyi, beynəlxalq aləm xəbərsiz idi. İkiüzlü Qorbaçov rejimi xalqımıza qarşı qanlı terror aktı törətməklə yanaşı, həm də Azərbaycanı informasiya blokadasına almış, haqq səsimizi boğmağa çalışmışdı. Belə bir ağır məqamda ulu öndər Heydər Əliyev hadisəyə dərhal münasibət bildirmiş, həyatını təhlükədə qoyaraq Moskvadakı Azərbaycan nümayəndəliyinə gedərək, orada xalqın düçar olduğu faciənin əsl mahiyyətini bütün dünya ictimaiyyətinə çatdırmış, SSRİ rəhbərliyini törətdiyi bu cinayətdə ittiham edərək bəyanatla çıxış etmişdir. Dünyanın ən nüfuzlu informasiya vasitələri də məhz Heydər Əliyevə istinad edərək faciə barədə dürüst məlumatlar yaymışlar. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə bu tarixi cinayətə 1994-cü il mart ayının 29-da Milli Məclisdə lazımi hüquqi-siyasi qiymət verilmiş, hadisənin bədnam iştirakçılarının adları açıqlanmışdır. Həmçinin, Ulu Öndərin səyi ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, dövlət qayğısının gücləndirilməsi, bu hadisələrin qurbanlarına və onların ailələrinə maddi, mənəvi yardım göstərilməsi haqqında qərarlar qəbul edilmiş, tədbirlər görülmüşdür.

Ulu öndər Heydər Əliyev demişdir: **"Bizim xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki o, ayrı-ayrı insanlara edilən təcavüz deyildi, bu, bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi və bizim xalqımıza qarşı soyqırım idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır".**

20 Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı həmin il yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak etdi. Xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırıldı və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edildi.

Bu hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilərək, dönməz xarakter aldı, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda gördü.

Bu gün Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla yad edir, onların igidliyini yüksək qiymətləndirir. 20 Yanvar hadisələri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi yazılıb. Həmin gün öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini uca tutan vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaq.

Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutur. Hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə qeyd edilir, xalq istiqlal fədailərinin məzarlarına al qərənfillər düzür, onları qürurla anır, qatillərini lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini bildirir.

Qanlı Yanvar faciəsi qurbanlarının xatirəsi hər birimiz üçün əzizdir.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2022.- 18 yanvar.- S.5.